QARABAĞ AZƏRBAYCANDIR!



Polis xalqımıza, müstəqil Azərbaycan dövlətinə, onun hər bir vətəndaşına xidmət edir.

Heydər Əliyev

# MÜBARİZ KEŞİKDƏ

19 noyabr 2020-ci il
Cümə axşamı

№ 42 (3507)

www.mk.mia.gov.az - polisazerbaycan

1933-cü ildən çıxır

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

## Ali Baş Komandan: “Azərbaycan bayrağı işğaldan azad edilmiş torpaqlarda qaldırıldı və əbədi dalğalanacaq”

Noyabrın 16-da Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad edilmiş Füzuli və Cəbrayıl rayonlarında, o cümlədən Füzuli və Cəbrayıl şəhərlərində olublar.

Prezident İlham Əliyev Füzuli rayonundan Şuşa şəhərinə yol çəkilişi ilə bağlı göstəriş verib. Artıq bu yolun inşasına start verilib.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva layihənin icrasının gedişi ilə tanış olublar.

Dövlət başçımız bildirib ki, bu gün ölkəmizin həyatında çox əlamətdar bir gündür, tarixi bir gündür. Bu gün Füzuli-Şuşa avtomobil yolunun təməli qoyulur. Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bu yolun çox böyük əhəmiyyəti var. Çünki bu yol bizi Qarabağın tacı olan Şuşa şəhərinə aparır.

Bu gün artıq biz quruculuq işlərinə başlamışıq. Qələbə günündən 8 gün və Ermənistanın kapitulyasiyasından 6 gün keçəndən sonra artıq bu yerdən – Alxanlı qəsəbəsindən Füzuli-Şuşa avtomobil yolu çəkilir. Bu yol çox rahat və geniş olacaq. Bu yol imkan verəcək ki, Şuşaya rahat gedib-gələ bilək.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva yol işçiləri ilə xatirə şəkli çəkdiriblər.

Elə həmin gün dövlətimizin başçısı və birinci xanım işğaldan azad olunmuş Füzuli şəhərinə gəliblər.

Müzəffər Ali Baş Komandan qəhrəman Azərbaycan Ordusunun işğaldan azad etdiyi tarixi torpağımızda üçrəngli bayrağımızı qaldırıb.





Ölkə başçımız qeyd edib ki, bizim bütün hərbçilərimiz, Füzuli və işğaldan azad edilmiş başqa torpaqlarda yaşamış sakinlər bilməlidirlər ki, biz bütün bu yerləri bərpa edəcəyik. Mən demişdim, Füzulidə bir dənə də bina tapılmadı ki, orada Azərbaycan bayrağı ucaldılsın. Amma biz bərpa edəcəyik. İndi müvafiq göstərişlər verildi, planlı şəkildə bunu edəcəyik, beynəlxalq ekspertləri dəvət etmişik, onlar da gələcəklər. Bütün dəymiş ziyanı birlikdə hesablayacağıq. Ondan sonra şəhərsalma üzrə mütəxəssisləri - həm Azərbaycan mütəxəssislərini, həm xarici mütəxəssisləri dəvət edəcəyik. Onlar da gələcəklər, yeni bir şəhərsalma planı qurulacaqdır. Kəndlərin, şəhərlərin, infrastrukturun, ekologiyanın bərpası – bütün bu planlar var. Hamısını icra edəcəyik, İnşallah, hamısını! Allahın köməyi ilə hamısını icra edəcəyik. Necə ki, torpaqlarımızı qaytardıq, düşməni məhv etdik, bu üçrəngli bayrağımızı ucaltdıq, bütün qalan məsələləri də həll edəcəyik.

Dövlətimizin başçısı yol kənarına toplaşan insanları görüb və avtomobili saxlayaraq onlarla görüşüb.

Sonra ölkə başçımız və birinci xanım Xudafərin körpüsünə gəliblər. Prezident İlham Əliyev Xudafərin körpüsündə şanlı Azərbaycan bayrağını qaldırıb. Dövlətimizin başçısının bayrağımızı tarixi Xudafərin körpüsündə qaldırması Azərbaycan xalqı üçün qürur və fəxarətdir. Xalqımızın mənəviyyatında, tarixində dərin iz buraxan Xudafərin həm də milli qürur məsələsi idi.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Araz çayının sahilini gəziblər, Xudafərin körpüsünün önündə xatirə şəkilləri çəkdiriblər.

Daha sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 4-də işğaldan azad edilmiş Cəbrayıl şəhərinə gəliblər.

Dövlətimizin başçısı, Ali Baş Komandan Cəbrayıl şəhərində də üçrəngli bayrağımızı qaldırıb.

O, bildirib ki, haqq-ədalət zəfər çaldı. Müzəffər Azərbaycan Ordusu zəfər çaldı. Düşmənin beli qırıldı. Düşmən torpaqlarımızdan qovuldu. Azərbaycan bayrağı işğaldan azad edilmiş torpaqlarda qaldırıldı və əbədi dalğalanacaq.

Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!

## Türk hərbçilər Azərbaycana gəlir

**Qardaş ölkənin siyasi dəstəyi ilə yanaşı, hərbi dəstəyini də xalqımız sevinclə qarşıladı.**

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Türkiyə Böyük Millət Məclisinin Azərbaycana hərbi qüvvələr göndərilməsi ilə bağlı qəbul etdiyi qanunu imzalayıb.

Bu barədə "Resmi gazete" məlumat yayıb.

Məlumatda qeyd olunur: "Azərbaycan Ordusu ərazi bütövlüyünün təmin edilməsi istiqamətində böyük uğur əldə edib. Azərbaycan, Rusiya və Ermənistan arasında imzalanan bəyanata görə, Rusiya və Türkiyə arasında atəşkəsin monitorinq mərkəzinin yaradılması qərara alınıb. Türkiyə hər zaman Azərbaycanın yanında olub və bundan sonra da olmağa davam edəcək. Türkiyənin Azərbaycana verdiyi dəstək Azərbaycanın suverenliyinin qorunması üçün beynəlxalq hüquqa əsaslanır".

Qeyd edək ki, layihə parlamentin 17 noyabrda keçirilən iclasında müzakirəyə çıxarılıb və qəbul edilib.

Qanuna əsasən, Türkiyə hərbçiləri 1 il müddətinə Azərbaycandakı Rusiya-Türkiyə Birgə Monitorinq Mərkəzində fəaliyyət göstərəcəklər.

***Ölkəmizin rəhbəri noyabrın 17-də Moldova Respublikasının Prezidenti vəzifəsinə seçilməsi münasibətilə zati-aliləri xanım Maya Sanduya təbrik məktubu ünvanlayıb.***

***Azərbaycan Prezidenti İlham Əliyev noyabrın 17-də Əhmədbəyli–Füzuli–Şuşa avtomobil yolunun layihələndirilməsi və tikintisi ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb. Sərəncama əsasən ümumi uzunluğu 101,5 kilometr olan Əhmədbəyli–Füzuli–Şuşa avtomobil yolunun layihələndirilməsi və tikintisi üçün 2020-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ilkin olaraq 50 milyon manat ayrılıb.***

***Noyabrın 18-də Azərbaycan Prezidenti İlham Əliyev Niderland Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri xanım Paulin Eizemanın etimadnaməsini qəbul edib.***

## Rusiya Prezidentindən tarixi açıqlama

**Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir. Azərbaycan bütün dünya birliyinin ona məxsus hesab etdiyi əraziləri özünə qaytarıb.**

Bunu Rusiya Prezidenti Vladimir Putin "Rossiya 24" telekanalının efirində Qarabağa dair razılaşmadan danışarkən bildirib. Rusiya prezidenti vurğulayıb ki,"Ermənistanın Qarabağla bağlı hazırkı razılaşmadan imtina etməsi ölkə üçün intihar olardı".

"Heç kim, hətta Ermənistan da Qarabağın müstəqilliyini tanımayıb. Bu, beynəlxalq hüquq baxımından nə deməkdir? Azərbaycan özünün hesab etdiyi, elə bütün dünya birliyinin də Azərbaycan ərazisi kimi tanıdığı torpaqlarını geri qaytarırdı. Bununla əlaqədar o, bu işdə ona məlum yardım göstərən istənilən müttəfiqi seçmək hüququna malik idi", - deyə Putin qeyd edib.

Jurnalistlərin Azərbaycana xarici, xüsusən də Türkiyənin dəstəyi ilə bağlı suallarını cavablandıran Putin vurğulayıb ki, Azərbaycan müstəqil suveren dövlətdir və "müttəfiqlərini lazım bildiyi kimi seçmək hüququna malikdir". "Kim buna görə ona etiraz edə bilər?", - deyə Rusiya Prezidenti əlavə edib.

Daha sonra Rusiya Prezidenti Qarabağ üzrə Türkiyə-Rusiya mərkəzindən də danışıb: "Bizim Yaxın Şərqdə qarşılıqlı təsir üzrə çox yaxşı təcrübəmiz var, həmçinin Suriyada, İdlib zonasında, Suriya və Türkiyə arasında sərhəddə birgə patrul xidməti, konvoylar təşkil edirik. Burada bu cür qarşılıqlı əlaqə tələb olunmur. Amma biz razılaşdıq ki, birgə mərkəz yaradacağıq, hansı ki, pilotsuz uçuş aparatlarından istifadə edəcək, bu aparatların köməyi ilə ayrılma xətti boyunca vəziyyətə birlikdə nəzarət edəcək, informasiya alacaq, birlikdə təhlil edəcəyik.

Birgə monitorinq mərkəzi suveren Azərbaycanın ərazisində yerləşəcək. Azərbaycanın müstəqil qərar vermək hüququ var. Haranı məqsədəuyğun bilsə, orada yerləşdiriləcək".

# 1988-ci ilin noyabrından 2020-ci ilin noyabrına...





**O noyabrın qışı daha soyuq, şaxtası qılıncdan daha kəsərli idi. O noyabrda gedənlər bir də geri dönməyəcəkdi. Tərk edilmiş yurdlar kimsəsiz, nigaran ruhlara, yiyəsinin iyini canına çəkmiş, zəncirindən açılmış itlərə, bir zamanlar gur yanan ocağın nağıl yuxusuna məst olan pişiklərə qalacaqdı. Yurdun hər qarışına yazılmış tariximizi silmək, milyon illik ocaq yerlərimizi yer-lə-yeksan edib yerinə xaç basdırmaq istəyənlərin əlindəki silahının insaf üzü yox idi. Bu kinin, bu nifrətin bir adı vardı: bu gün də hələ çarəsi tapılmayan erməni xəstəliyi...**





“Qonşun pisdi köç, qurtar”la da iş bitmirdi. Hara köçəydik, niyə köçəydik? Axı yurdun o başı da Vətən idi, bu başı da. Vətəndən-Vətənə başlanan köç bir millətin faciəsi deyildimi?

Sən demə, bizi bir ulduz altında birləşdirənlər sonumuzu bizdən yaxşı bilirlərmiş. Sən demə, bir millətin köç ssenarisi çoxdan yazılıbmış. Bizi köçürmədilər e, pərən-pərən etdilər, millət yollarda, buzlu dağ aşırımlarında pələsəng oldu...

1905-1906,1918-1920,1948-1953 və 1988-ci ilin soyuq noyabrı. Taleyimizlə barışsaq da, yurdsuzluqla, Vətənsizliklə barışa bilmirdik. Hər noyabr ayı gələndə içimizdəki nisgilimiz göyərir, qaysaq tutmayan yaramız yenidən qanayır. İndi Ermənistan adlanan dədə-baba yurdlarımıza günlərin birində dönərik deyə əzrayıla can verməyir yaşı yüzü haqlayanlar.

Düşmən elə azğınlaşdı ki, Qarabağı və ətraf rayonları da işğal etdi. Daha bir köç də ölümlərə yol açdı. Dünyanın Azərbaycan dramını izləyənlərin nə canı yandı, nə də ki, bu gedişə “Dur!”,-dedilər. Yalan vədlərlə, yazışmalarla, diplomatik masalardakı oyunlarla gözümüzə kül üfürüb, erməniyə isə “Vur!”, -dedilər. Bu otuz ili canımız dişimizdə gəzdik. Mübariz İbrahimov ruhumuzun ölmədiyinə inandırdı bizi. Düşmənin yuxusunu ərşə çəkən mübarizlər boy verdi içimizdən. Lələtəpəyə bayraq sancanda keçilməzləri keçməyə təpərimizin olduğunu gördük, yağmalanan torpaqlarımızda düşmənin havadarlarının köməyi ilə möhkəmləndiyinin bir daha şahidi olduq. Əllərini çəkəndə düşmən sabun köpüyü kimi suyun üzündə qaldı...

2020-ci ilin mübarək sentyabrında Vətən müharibəsinə başladıq. Müharibənin elə ilk günlərindəcə düşmən darmadağın edildi. Duruş gətirəcəyini zənn edən İrəvanın Xankəndi ilə arasındakı bağı elə ilk həmlədəcə qoparan ordumuz tarixi zəfərin ilk cümləsini oktyabrın 4-də Cəbrayılda yazdı. Bizi heç kim dayandıra bilməzdi, çünki müharibəni, antiterror əməliyyatını öz sərhədlərimiz daxilində aparırdıq. “Dayan”ın, “dur”un israrları qısamüddətli atəşkəslərlə müşahidə olunsa da Gəncənin bombalanması, Bərdə qətliamı düşmənin soyqırımlarda mahir olduğunu bir daha sübut etdi. On yeddi oktyabrda Füzili sevincinin sədası 20 oktyabrda Zəngilanda eşidiləndə Ermənistan hökuməti MİNSK qrupunu müharibəni dayandırmaq üçün sözün əsl mənasında cana yığdı. Şimal qonşumuz Rusiya sözünü kəsə dedi: “Müdaxilə edə bilmərik, çünki müharibə tarixi Azərbaycan ərazisində aparılır və biz onun ərazi bütövlüyünə hörmətlə yanaşırıq”.

Fransa isə bu illər ərzindəki susqunluğunu bu dəfə erməni əziləndə qoruyub-saxlaya bilmədi. Necə deyərlər, ermənidən betər erməni oldu. Amma çıfayda...

Qubadlıda Azərbaycan əsgəri bayraq sancırdı. Xudafərinin azadlığına qovuşmasını Arazın o üzündəki Vətən sevdalıları coşqu ilə qeyd edirdilər. Addım-addım, qarış-qarış azad edilən torpağın sevincini milyonların sevinci ilə eyniləşdirmək olmaz. Topraq azadlığına, ona özgürlük bəxş edənə qovuşanda duasını, şükranlığını mələklər eşidir...

Yollar, ümidlər, arzular Şuşaya aparırdı. O Şuşa ki, tarixdə dəfələrlə düşmən həmləsinin və hiyləsinin qurbanı olmuşdu. 1992-ci ilin mayında Xarı bülbül düşmən əsgərlərinin ayaqları altında can vermişdi. Xanın quş qanadlı səsini boğmuşdular, Üzeyir bəyin, xan qızı Natavanın heykəllərini güllələmişdilər. Bu illər ərzində Şuşanı haylaşdırmaq üçün nələr etməmişdi erməni təbliğat maşını. Aparılan arxeoloji qazıntılar zamanı üzə çıxarılan maddi-mədəniyyət abidələrimiz Ermənistana daşınmışdı, xaricdə keçirilən bütün tədbirlərdə Şuşa qədim erməni şəhəri kimi təqdim olunmuşdu. Düzdür, gücümüz çatan, sözümüz keçən yerdə ağızlarından vurub əsl həqiqəti az da olsa lal, kor və kar dünyaya çatdıra bilmişdik.

*Ardı 3-ci səhifədə.*

# BİRLİYİMİZİN QƏLƏBƏSİ

**Ali Baş Komandanımızın xalqa müraciət edərək Qələbə müjdəsini verməsi ölkəmizin hər yerində böyük coşqu, sevinc və qürur hissi ilə qarşılandı.**




Qarabağ savaşında şanlı Qələbə - 28 illik yurd həsrətinə son qoyularaq işğal altında olan bütün torpaqların azad edilməsi, müharibənin Ermənistanın hərbi kapitulyasiyası ilə bitməsi sevincini bölüşmək üçün ölkəmizin bütün bölgələrində küçə və meydanlarına çıxan sakinlərin bayram yürüşləri gecə saatlarınadək davam etdi.



Xalqımız uzun illər idi, bu günü gözləyirdi.

O gün Qələbəmizi bütün dünyaya bəhs etmək gəlirdi hər birimizin içindən...

Hamının gözündə qürur, fərəh, sevinc göz yaşları...

Üçrəngli bayrağımıza bürünmüşdü hər tərəf. Yaşından, peşəsindən asılı olmayaraq hər kəs Zəfər coşqusunu yaşayırdı...

Belə bir unudulmaz gündə vətəndaşlara dəstək olduqlarına, sevinclərini birgə bölüşdüklərinə görə Azərbaycan Polisinə təşəkkür edənlər çox oldu. Sosial şəbəkələrdə “Sağolsun polislərimiz, biz bir yumruq kimiyik, hər bir azərbaycanlı bu sevinci yaşadı” kimi paylaşımlar edilməsi polis-vətəndaş həmrəyliyini bir daha nümayiş etdirdi. İnsanlarımız çətin gündə də, xoş gündə də Azərbaycan Polisinin xalqın yanında, düşmənin, cinayətkarın qarşısında olduğunu yaxşı bilirlər.

Axı polis də bu xalqın övladıdır.

Azərbaycan Polisinin ölkəmizdə hərbi vəziyyətlə əlaqədar komendant saatının tətbiqinə riayət olunması ilə bağlı tələbinə də xalq hörmətlə yanaşdı. Bütün bunlar bir daha həmrəyliyimizi, vətənpərvərliyimizi, birliyimizi nümayiş etdirdi. Məhz elə bu birlik sayəsində də düşmən üzərində Qələbə çaldıq.

*Aytəkin Nəcəfova,*
*polis polkovnik-leytenantı*

# HƏMRƏYLİK İFADƏ EDƏN MƏKTUBLAR

**Azərbaycan vətəndaşları, eləcə də xaricdə yaşayan soydaşlarımız Qarabağ müharibəsində qazandığımız tarixi Qələbə münasibətilə Prezident, Ali Baş Komandan İlham Əliyevə məktublar ünvanlamaqda davam edirlər. Sevinc hisslərini ifadə etdikləri məktublarda onlar dövlətimizin başçısına minnətdarlıqlarını bildirirlər.**

**Türkiyənin Ankara şəhərindən Kadir Başar yazır:** “Hörmətli cənab Prezident, 44 gün davam edən və şanlı Azərbaycan Ordusunun qələbəsi ilə nəticələnən Qarabağ zəfəri münasibətilə Sizi və Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Qarabağ müharibəsi dövründə göstərdiyiniz yüksək liderlik keyfiyyətləri digər ölkələrin başçıları üçün nümunədir. Azərbaycan Ordusunun müasir silahlarla təchiz olunaraq yüksək əhval-ruhiyyə ilə mübarizəyə başlanması və çox çətin relyefli ərazidə inamla qalib gəlməsi dünyanın bir çox yerində həsəd və qısqanclıqla qarşılandı. Allah 1992-ci ilin fəlakətlərini yenidən Azərbaycana yaşatmasın, həmişə qalib gələnlərdən etsin. Azərbaycanın yolu həmişə açıq olsun. Sizə cansağlığı və uğurlar diləyirəm”.

**Hatay şəhərindən Rıfat Sağlam:** “Hörmətli cənab Prezident, biz türklər Azərbaycanın qazandığı qələbələrə elə azərbaycanlılar qədər sevinirik. Torpaqların geri alınması hamımızı qürurlandırır. Artıq rahat nəfəs ala bilərik, dədə-babalarımızın ruhu şad ola bilər. Vətən torpağı işğalçıdan azad olundu. Ulu Atatürkümüzün dediyi kimi, türkün türkdən başqa dostu yoxdur. Mən də Azərbaycan xalqının yaxın dostu kimi qazandığınız qələbələrdə az da olsa töhfəm olsun deyə balaca ərmağan göndərirəm. Sizi və Azərbaycan xalqını çox sevirəm. Sizin cəsurluğunuz, cəsarətiniz bizi də ürəkləndirir, ruhlandırır. Dünya var olduqca Türkiyə və Azərbaycan dostluğu da var olacaq”.

**İsraildən Yevgeni Xazanov yazır:** “Möhtərəm cənab Prezident İlham Heydər oğlu Əliyev, Azərbaycanda anadan olmuş və hazırda İsraildə yaşayan bütün dostlarım adından və şəxsən öz adımdan bütün Azərbaycan xalqını Qələbə Günü münasibətilə təbrik edirəm. Bu tarixi gün təkcə Azərbaycanda deyil, eyni zamanda, bütün dünyada da zəfər salnamələrinə əbədi yazılacaq. Bu günlərdə mən Azərbaycan xalqının Qələbəsi ilə sözlə ifadə edilməyəcək sonsuz qürur duyuram. Allah Sizə uzun ömür, cansağlığı versin, Azərbaycan xalqına dinc səma altında yaşamağı nəsib etsin. Qarabağ həmişə Azərbaycan olub və olacaq!”.

**Kəlbəcər sakini Rövşən Əsgərov:** “Möhtərəm cənab Prezident, Müzəffər Ali Baş Komandan, bizlərə bu qürurlu günləri yaşatdığınıza görə Sizə böyük təşəkkür edirik. Heç kimə sirr deyil ki, bu gün Azərbaycan şanlı Ordusunun qələbə zəfərlərindən ruhlanaraq dünyaya ədalət mesajı verir. Bu ruh yüksəkliyi 90-cı illərin əvvəlində mövcud idi, lakin bu hərəkatın lideri yox idi. Bu gün biz fəxrlə deyə bilərik ki, Qarabağ hərəkatının Azərbaycanda lideri İlham Əliyevdir. Azərbaycan tarixinin 3min illik bir dövrünə nəzər saldıqda, tam məsuliyyəti ilə deyə bilərik ki, son yüksəliş illəri bu xalqın ən möhtəşəm intibah, özünü dərketmə dövrüdür. Ümummilli Liderin təməlini qoyduğu müstəqil Azərbaycan bundan sonra da böyük qalibiyyətlərə imza atacaq. Sizin uğurlu daxili və xarici siyasətiniz öz bəhrəsini verdi. Dünya anlayır ki, Azərbaycan Qarabağın tamhüquqlu sahibidir, ermənilər vaxtilə buraya köçürülüblər. Sovet dönəmindən indiyə kimi Qarabağda ermənilər yaşayıb, dünyanın heç bir yerində ermənilərə bu qədər avtonom hüquq verilməyib. Hörmətli Prezident, bu sadə həqiqəti dünyaya çatdırdığınıza görə Sizə dərin minnətdarlığımızı bildiririk. Uca Allah Azərbaycanı və Sizi qorusun! Mən Prezidentim və Qarabağ hərəkatının lideri İlham Əliyevlə fəxr edirəm. Yaşasın Ali Baş Komandan! Yaşasın Azərbaycan Ordusu! Qarabağ Azərbaycandır!”.

**Ağdam sakini Tofiq Abbasov:** “Müzəffər Ali Baş Komandan, Siz müdrik siyasətiniz və haqlı mübarizəniz nəticəsində qazandığınız möhtəşəm qələbə ilə adınızı qızıl hərflərlə tarixə yazdınız. Siz bir daha dünyaya Azərbaycanın güclü dövlət olduğunu göstərdiniz. Bunun üçün Sizə təşəkkürümüzü bildiririk. Azərbaycan xalqı tam olaraq Sizin arxanızdadır, Sizinlə qürur duyur. Bu çətin, lakin şərəfli işinizdə Sizə və rəşadətli ordumuza uğurlar arzulayırıq. Əziz və sevimli Prezidentim, Azərbaycanın hansı bölgəsində yaşamağımıza baxmayaraq, ürəyimiz həmişə ana torpaqla - üstündə ilk addımlarımızı atdığımız, uğrunda canımızı fəda etməyə hazır olduğumuz müqəddəs torpaqla Qarabağla döyünür. Bu müqəddəs torpaq üçün əbədiyyətə qovuşan şəhidlərimizin və onları boya-başa çatdıran valideynlərinin qarşısında baş əyirik. Allah Ordumuza güc və qüvvət versin. Uca Allah Sizə və müzəffər Ordumuza yar olsun! Qələbə bizimdir! Qarabağ Azərbaycandır!”.

# İşğaldan azad edilən rayonlara polis şöbələri köçürülür

Azərbaycan Ordusunun ölkəmizin ərazi bütövlüyünün bərpası istiqamətində apardığı müharibədə qazandığı qələbə nəticəsində Prezident İlham Əliyevin “Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində müvəqqəti xüsusi idarəetmənin təşkili haqqında fərmanı”na uyğun olaraq Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov əmr imzalayıb.

Əmrə əsasən, işğaldan azad edilən rayonlara polis şöbələri köçürülür.

Artıq Xocavənd Rayon Polis Şöbəsi işğaldan azad edilən Hadrut qəsəbəsinə yerləşdirilib. İşğaldan azad edilən Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Şuşa və digər rayonlara da polis şöbələrinin yerləşdirilməsi fərmana uyğun olaraq davam etdirilir.

Bu proses Azərbaycan Respublikasının inzibati ərazi bölgüsünə müvafiq olaraq aparılır. Qeyd edək ki, polis şöbələri müvəqqəti komendantlıqlar kimi hər rayon üzrə xüsusi idarəetməni həyata keçirəcəklər.

# Onlar tarix yazdılar



**İgid oğullarımızın ən böyük arzusu sağalıb yenidən Vətənin müdafiəsində durmaqdır**

Bugünlərdə Quba Rayon İcra Hakimiyyətinin rəhbərliyi, rayonun hüquq mühafizə orqanlarının və digər dövlət qurumlarının məsul şəxsləri Vətən müharibəsində yaralanmış



və Vətən uğrunda sağlamlığını itirmiş şəxslərə göstərdiyi diqqət və qayğıya görə minnətdarlıqlarını ifadə edən qazilərimiz Qələbəyə xalqımızın birliyinin və həmrəyliyinin sayəsində nail olduğumuzu vurğulayıblar.

*****

Siyəzən Rayon Polis Şöbəsinin əməkdaşları da Vətən savaşında böyük şücaət göstərərək, düşmənə aman





verməyən qazilərimizi ziyarət ediblər. Vətənimizin igid oğullarına baş çəkməyi özlərinə borc bilən asayiş keşikçiləri onları vətənpərvər böyüdən valideynlərə də minnətdarlıqlarını bildiriblər.

döyüşçüləri ziyarət ediblər. Onlar qaziləri düşmən üzərində qazanılan tarixi Qələbə münasibətilə təbrik edib, Müzəffər Ordumuzun torpaqlarımızın azadlığı uğrunda göstərdiyi şücaətin əsl qəhrəmanlıq salnaməsi olduğunu diqqətə çatdırıblar.

Görüşdə dövlətimizin şəhid ailələrinə

*Nizam Həmidov,*
*polis baş leytenantı*

# 1988-ci ilin noyabrından 2020-ci ilin noyabrına...

***Xalqa dəfələrlə müraciətində torpaqlarımızı azad etmək yolunda apardığı mücadilədə onun da qarşısını almaq üçün hansı əngəllərin olduğunu qorxmadan, çəkinmədən dilə gətirdi. Biz zamanlar "Heydər baba, xalqı bu bəladan qurtar",- deyən XALQ indi "Cənab Ali Baş Komandan, dayanma, irəli get, müharibə bitməsin, biz səninləyik",- deyirdi.***

***Noyabrın 8-də Şəhidlər Xiyabanından xalqa edilən müraciətin mənasını çözmək elə də çətin deyildi. Bunca illər ərzində Vətən torpağı uğrunda qanları tökülənlərin ruhunu sevindirmək üçün dövlət başçımız xalqa məhz o ruhsal***

və XALQ qarşısında verdiyi sözə əməl etməsi, hərb və siyasət meydanında qələbəmizlə yekunlaşdı. O gün bütün Azərbaycan ayaqda idi. O gün göy üzü də şəhid ruhları ilə sevinirdi.

Qələbə günündə hələ birinci Qarabağ savaşında mərmi udmuş ayağını, əlini, gözünü düşmənə əsir düşməsin deyə öz əlləri ilə torpağa basdıran qazilərin sevincini, bugünlərdə Qələbə sorağını eşidib yatdığı xəstəxananın pəncərəsini açıb sağ qolunun yoxluğunu unudan əsgərin sol qolunu ürəyinin üstünə qoyub Vətən sağ olsun dediyini yazmaqda qələm acizdir.

Qələbəmiz dünya hərb tarixinin mö-

*Əvvəli 2-ci səhifədə.*

***Və etiraf edək ki, bu 44 gündə biz İlham Əliyev fenomenini də yenidən kəşf etdik. Onun qüdrətli bir sərkərdə, siyasət meydanını bölüşən nəhənglərin yanında boyu hər zaman ucada olan diplomat olduğunu da gördük. Ötən illər ərzində ordumuzun güclənməsi, xalqımızın rifah halının yüksəldilməsi, ən əsası, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə beynəlxalq hüquq normaları çərçivəsində həllini tapması üçün gecəli-gündüzlü necə böyük bir zəhmətlə, yanğı ilə Vətənin xidmətçisi kimi çalışdığına da şahidlik etdik. O, nəyi dedisə, nəyə imza atdısa onu da etdi. Hər çətinin öhdəsindən xalqına güvənərək gəlməyi bacardı.***

***məkandan müraciət etməyi düşünmüşdü. And yerimiz Şuşanın işğaldan azad edildiyi xəbərini Ali Baş Komandanın dilindən eşitmək 50 milyondan çox olan bir xalq üçün daha böyük qələbələr qazanmağa çağırış idi.***

***Gözləri dolmuş, bu xəbəri hər birimiz kimi illərdir gözləyən VƏTƏNDAŞ olaraq Prezident deyirdi: "Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik!"...***

10 noyabr. Bütün Türk dünyasının, dünya Azərbaycanlılarının qələbə ayı. 1988-ci ildən bu yana apardığımız mübarizədə və nəhayət, Vətən savaşında biz qalib gəldik. Dizini yerə gətirdiyimiz düşmən məğlubiyyətini etiraf etdi.

"Qarabağ Azərbaycandır və nida!",- deyən Ali Baş Komandanın VƏTƏN

cüzəsidir. Hələ bundan sonra Azərbaycan əsgərinin haqq uğrundakı mücadiləsindən cild-cild kitablar yazılacaq. Daha beli bükük, başı aşağı gəzməyəcəyik. Hər yerdə biz qalib ölkənin VƏTƏN-



DAŞIYIQ sözünü ürəklə deyəcəyik.

**P.S** Bizi 1988-ci ildə indiki Ermənistandan, tarixi Azərbaycan torpaqlarından noyabrda köçürmüşdülər, özü də zorla. Ermənilər isə maşınlarda onların olmayan torpaqların ağaclarını kəsib, quşunu, böcəyini yandırıb 1993-cü ilin aprelində işğal etdikləri Kəlbəcəri tərk edirlər. O köçlə, bu köçün fərqini dünya yaxşı görür. Dünən olduğu kimi, bu gün də səsini çıxarmır, susur...

Və bir zaman elimizin şair oğlu Sücayət böyük bir uzaqgörənliklə və ağrı ilə deyirdi...

***Sücaət, neyləyək, baxt belə baxtdı,***
***Darıxma, hər şeyi həll edən vaxtdı.***
***Bir gün gülə-gülə qayıdacaqdı,***
***Ağlaya-ağlaya köçən Kəlbəcər.***

*Hafiz Təmirov,*
*polis polkovnik-leytenantı*

# "Mən yaşadım, qələbəni gördüm"

**Yazının başlığını 84 yaşlı İmişli rayon sakini Cəmil Fərzəliyevin redaksiyamıza ünvanladığı məktubdan götürmüşük.** Yazır ki, düşmən üzərindəki qələbəmizi sözlə ifadə etməkdə çətinlik çəksə də ona bütün varlığı ilə sevinir. Çünki bu müqəddəs günləri biz illərdir ki, gözləyirdik: "Ötən illər ərzində inanılmaz dözüm, səbr, cəsarət nümayiş etdirən, möhkəm iradəsi və uzaqgörən siyasəti ilə həmişə xalqımızı təmkinli olmağa, sabaha inanmağa səsləyən möhtərəm Prezidentimiz İlham Əliyevə və Azərbaycan Ordusuna sonsuz təşəkkür etsəm də yenə azdır. Qazandığımız Qələbə ilə biz düşməni yerinə oturdub, torpaqlarımızı işğaldan azad edib, ərazi bütövlüyümüzə nail olduq. Qələbə xəbərini eşidəndə az qaldı ki, ürəyim köksümdən çıxsın.Vur, vuran əlin var olsun





Azərbaycan əsgəri!"...

Bu gün biz qalib dövlətik. Bu qalibiyyətdə yaşından, peşəsindən asılı olmayaraq hər birimizin əməyi, payı var. Azərbaycan Polisi həm arxa cəbhədə, həm ön cəbhədə üzərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlir. Sabitliyimizin etibarlı təmini sayəsində həyat öz axarı ilə davam edir.

Azərbaycan Polisinin fədakar xidmətini hər kəs görür və dəyərləndirir. Redaksiyamıza hər gun onlarla təşəkkür məktubu daxil olur. **Neftçala rayon sakini Əli Nağıyev yazır:** "Polis olmaq şərəfdir. Bu şərəfi şərtləndirən davranış mədəniyyətidir. O mədəniyyət isə bütün cəhət və əlamətlərinə görə, cəmiyyətə, dövlətə xidmət prinsipləri üzərində köklənib. Polis peşəsi dünyada ən çətin, təhlükəli və idealist məşğuliyyətdir. Bu peşə, həssaslığı ilə digər sahələrdən fərqlənir. İnsanlar polisə güzəştsiz yanaşır, davranışlarını izləyir, hər addımını müzakirə edir. İnsan özünə qarşı sübutları qəbul



etmir. Bu, genetik mental vərdişdir. Sübut, əsas, səbəb qəbul edilməyəndə mübahisə yaranır, yaxud ən yaxşı halda "dedi-qodu" başlayır. Ona görə ki, orta səviyyəli insanların əksəriyyəti qanunun keşiyində dayanan polisə tabe olmağı bilmir. Hüquqlarını sadalayır, ancaq vəzifələrindən xəbəri yoxdur. Bu da elementar praktik düşüncədir. Bütün dünyada ümumi fikir var – polis dövlətin və dövlətçiliyin əsas sütunlarından biridir. İnsanların təbiətcə xoşməramlı olduğunu düşünürsənsə, 24 saat polisi xidmətdən uzaqlaşdırın, görün nə baş verir. Təkcə, Azərbaycanda yox, bütün qabaqcıl ölkələrin həyatında polis təşkilatı hamını maraqlandıran təhlükəsizlik çətiridir. İnsan hüquq və azadlıqlarının qorunması, polis-vətəndaş münasibətlərinin daha da möhkəmləndirilməsi, vətəndaşların müraciətlərinə həssaslıqla yanaşılması Neftçala Rayon Polis Şöbəsinin rəhbərliyinin daim diqqətindədir və şöbənin əməkdaşlarının xidməti fəaliyyətinin əsas istiqamətlərindəndir".

Polisin hər addımına ictimai nəzarət edilir. Onun davranışı, insanlara münasibəti, daim diqqət mərkəzindədir. Redaksiyamıza bu şəkli göndərən vətəndaşımız, gördüyü mənzərənin sevincindən adını yazmağı unutsa da şəklin arxasında bunları qeyd edib: "Bu şəkli noyabrın 8-də Müzəffər Ordumuzun Şuşanı erməni qəsbkarlarından işğaldan azad etdiyi gün çəkmişəm. Azərbaycan Polisi Azərbaycanın Milli Qəhrəmanı, şəhid Albert Aqarunovun abidəsini ziyarət edirdi. Qürurlandım və sevindim. Demək, Vətən uğrunda canından keçən igid oğullarımız unudulmur və yaddan çıxmırlar..."

*A.Nəcəfova*

# Yastığımız Vətən daşı

**O hər kəs kimi xoşbəxt böyüməyib. Valideyn sevgisindən, sığalından, qayğısından uzaq, hər zaman gözü yolda, qulağı səsdə olub.**





Yaşamaq istədiklərini xəyallarında canlandırıb, həyat hekayəsini yuxularında görüb, arzularını qaldığı internatın divarlarına baxışlarıyla rəsm kimi çəkib. Bu o internat ki,



Elçinə sahib çıxıb, ona qucaq açıb, görmədiyi, amma görmək istədiyi ana qayğısını hiss etdirib. Müəllimlərinin ona aşıladığı Vətən sevgisi özüylə bir böyüyüb. Ürəyində torpağa, Vətənə olan məhəbbət ona Ana məhəbbətini əvəz edib. Böyüdü, çəkdiyi acılar illərin o üzündə qalıb, indi özü valideyndi.

Söhbət günlərdir sosial şəbəkələrdə hər kəsi kövrəldən və ən çox yayılan Hadrutda tikilinin divarına "Maştağa 1 nömrəli internat" sözlərini yazan Elçin Əhmədovdan gedir.

Üç uşaq atası olan Elçin sentyabrın 27-dən başlayan Vətən müharibəsinə işğal altında qalan torpaqlarımızı mənfur düşməndən azad etmək üçün könüllü olaraq qatılıb. "Yastığımız Vətən daşı, yorğanımız qar olsun", - deyir mərd Azərbaycan oğlu. Soyuq səngəri isti ana qucağı sanır. Bayrağımızı ucaltmaq üçün canından belə keçməyə hazırdır. Təki Vətən var olsun.

Soyuq, qar, çovğun bilmədən yurdumuzun keşiyini çəkən, ürəkləri Vətən sevgisiylə qızınan igidlərimiz, biz sizinlə qürur duyuruq. Allaha əmanət olun!

Vətənini, torpağını övladlarından da çox sevən Elçinlə və onun kimi yüzlərlə mərd oğullarımızla savaşdan qayıdandan sonra görüşmək ümidilə...

*Ruhiyyə Əliyeva,*
*polis baş leytenantı*

# Beynəlxalq media erməni vandalizmindən yazır

## Azərbaycanın təbiəti də erməni xəstəliyinin qurbanı olub. İşğal nəticəsində ölkəmizə yüz milyardlarla dollar ziyan dəyib

Kolumbiyanın "Caracol" televiziya kanalının "El mundo hoy" verilişində Ermənistan-Azərbaycan münaqişənin tarixi barədə məlumat verilib, hərbi əməliyyatların gedişi və hazırda ermənilərin işğal olunmuş ərazilərimizi tərk edərkən ətraf mühitə və infrastruktura zərər yetirdiyini əks etdirən kadrlar nümayiş etdirilib.

*****

Moldovanın nüfuzlu KİV-ləri-"Timbul", "Tribuna", NOİ.MD, AVA.MD və digər informasiya portallarında dərc edilən məlumatlarda Kəlbəcər, Laçın və Ağdam rayonlarından çıxan ermənilərin evlərə od vurduqları barədə ətraflı məlumat verilib, foto və videolar təqdim olunub. Vurğulanıb ki, ermənilər azərbaycanlılara qalmaması üçün evlərini yandırır, ağacları kəsirlər.

*****

Almaniyanın "deutschlandfunk.de" internet portalında "Ermənilər Azərbaycana təhvil verməzdən əvvəl evlərə od vururlar" adlı məqalə dərc edilib.


Berg-Karabach
Armenier zünden vor Übergabe a
Aserbaidschan ihre Häuser an
Ein Haus brennt in dem Dorf Charektar. (AFP / Alexander Nemenov )

Məqalədə Azərbaycan və Ermənistan arasında əldə olunan atəşkəs razılaşmasına görə Kəlbəcər rayonunun Azərbaycana təhvil verilməli olduğu bildirilir. Bu səbəbdən Dağlıq Qarabağ bölgəsində yaşayan ermənilər tərk etdikləri evləri azərbaycanlılara qalmaması üçün yandırırlar.

*****

Yaponiyanın "Yahoo Japan" saytı "Ermənistan müharibəni niyə uduzdu?" adlı məqalə yayıb.

Fransada yaşayan Saori İmari adlı yapon mənşəli yazıçı-jurnalistin müəllifi olduğu məqalədə bildirilir ki, münaqişə artıq başa çatıb. Bu münaqişə faktiki olaraq Azərbaycanın qələbəsi, Ermənistanın məğlubiyyəti ilə yekunlaşıb.

Məqalədə Qarabağın Azərbaycan ərazisi olduğu və yerli azərbaycanlıların bu torpaqlardan qovulduğu qeyd edilir. Bildirilir ki, sentyabrın 27-də başlanan döyüşlər cəmi 44 gün çəkib. Azərbaycan ona aid olan ərazilərdə nəzarəti bərpa edib.

Müəllif vurğulayır ki, bu münaqişəni bəzən xristianlarla müsəlmanların qarşıdurması kimi qələmə verənlər kökündən səhv edirlər.

*****

Meksikanın nüfuzlu ingilisdilli mətbu orqanı olan "Pulse News Mexico" qəzetində tanınmış jurnalist Teresa Marqolisin "Azərbaycan Ermənistanla niyə müharibədədir" sərlövhəli məqaləsi dərc olunub.

Məqalədə beynəlxalq səviyyədə tanınmış Azərbaycan torpaqlarının 27 il ərzində Ermənistanın işğalı altında olduğu və Ermənistanın BMT Təhlükəsizlik Şurası tərəfindən işğalçı qoşunların Azərbaycan torpaqlarından dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnaməsinə məhəl qoymayaraq bu əraziləri tərk etmədiyi qeyd olunur.

*****

İspaniyanın "LA VANGUARDIA" və "EL MUNDO" qəzetlərinin elektron versiyalarında yerləşdirilmiş videolarda Azərbaycan Respublikasının işğal altında olan Kəlbəcər rayonunun erməni vandalizminin daha bir nümunəsinə şahidlik etdiyi qeyd olunur.

Kəlbəcər rayonunda qanunsuz olaraq məskunlaşmış erməni əhalisi rayonu vandalizm aktları törədərək boşaldırlar. Videolarda əhalinin özləri ilə apara bilmədiyi əşyaları, yaşayış evlərini, məktəbləri yandırması öz təsdiqini bir daha tapır.

*****

Gürcüstan kütləvi informasiya vasitələri Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin və Birinci xanım Mehriban Əliyevanın işğaldan azad edilmiş Füzuli və Cəbrayıl rayonlarına, o cümlədən Füzuli və Cəbrayıl şəhərlərinə səfərlərindən və dövlətimizin başçısının çıxışlarından materiallar yaymaqda davam edirlər.

Nüfuzlu report.ge və 24news.ge informasiya portalları bu dəfə Azərbaycan Prezidenti İlham Əliyevin Dağlıq Qarabağın "statusu" barədə fikirlərinə diqqət ayırıblar.

*****

Misirin "Almasryalyoum" qəzetinin saytında "Azərbaycan Prezidenti işğaldan azad edilmiş Cəbrayıl rayonunda müharibənin yekunundan bəhs edib" sərlövhəli material yerləşdirilib.

Yazıda Azərbaycan Prezidenti, Silahlı




Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin qəhrəman Ordumuzun bir gündə 70-dən çox yaşayış məntəqəsini işğaldan azad etməsi, Şuşanın alınmasından sonra Ermənistanın faktiki olaraq kapitulyasiya aktını imzalaması, Füzuli-Şuşa avtomobil yolunun çəkilməsi barədə fikirləri yer alıb.

Qəzetin materialında qeyd olunub ki, Azərbaycan Prezidenti hazırda münaqişənin siyasi mərhələsinin getdiyini, bu mərhələdə ölkəmizin istədiyinə nail olduğu və olacağını bəyan edib.




Noyabrın 15-də saat 17:00 radələrində **Cəbrayıl RPŞ-nin** əməkdaşları tərəfindən rayonun girişində quraşdırılmış komendant postunda Qubadlı rayon sakini R.Hüseynovun idarə etdiyi "Mercedes" markalı avtomobil saxlanılmışdır. Baxış zamanı avtomobildən içərisində 10 ədəd qumbara alışdırıcısı olan dəmir qutu aşkar edilərək götürülmüşdür.

R.Hüseynov polis əməkdaşları tərəfindən saxlanılmışdır.

Faktla əlaqədar Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə cinayət işi başlanmışdır.

◆◆◆

**Tovuz RPŞ** əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Ağstafa rayon sakini E.Qəhrəmanovun idarə etdiyi "VAZ-2107" markalı avtomobil saxlanılmışdır. Nəqliyyat vasitəsinə baxış zamanı sərnişin N.Məsimovdan "AK-74" markalı avtomat silahı, 22 ədəd patron və 1 ədəd patron darağı aşkar edilərək götürülmüşdür.

◆◆◆

**Astara RPŞ** əməkdaşlarının keçirdikləri əməliyyat tədbiri nəticəsində rayon ərazisindəki evlərin birindən 590 manat dəyərində məişət əşyaları və C.Məmmədova məxsus 1800 manat dəyərində 80 ədəd bal çərçivəsini oğurlamaqda şübhəli bilinən Pensər kənd sakini Ş.Əliyev saxlanılmışdır.

◆◆◆

**Biləsuvar RPŞ** əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində noyabrın 10-da A.Bəyişovun 4 baş inəyini oğurlamaqda şübhəli bilinən Nəsimi kənd sakini Ə.Mirzəyev saxlanılmışdır.

◆◆◆

**Baş Narkotiklərlə Mübarizə İdarəsi** əməkdaşlarının daxil olmuş məlumat əsasında Səbail rayonu ərazisində keçirdikləri əməliyyat tədbiri nəticəsində Abşeron rayon sakini E.İbrahimov saxlanılmış və ondan 1 kiloqramdan artıq heroin aşkar edilərək götürülmüşdür.

◆◆◆

**Binəqədi RPİ 7-ci Polis Bölməsinə** müraciət edən Cəlilabad rayon sakini R.Abbasov noyabrın 7-nə keçən gecə M.Ə.Rəsulzadə qəsəbəsi ərazisindəki avtomobillərin təmiri sexlərinin birində ona məxsus "TOFAŞ" markalı avtomobilin 600 manat dəyərində hissələrinin sökülərək oğurlanmasını bildirmişdir.

Polis əməkdaşlarının keçirdikləri əməliyyat tədbiri nəticəsində oğurluğu törətməkdə şübhəli bilinən Bakı şəhər sakini O.Qayıbxanov saxlanılmışdır.

◆◆◆

**Nizami RPİ 24-cü PŞ** əməkdaşlarının keçirdikləri əməliyyat tədbiri nəticəsində N.Şərifovun mobil telefonunu soyğunçuluq yolu ilə aparmaqda şübhəli bilinən Yevlax rayon sakini D.Rüstəmzadə saxlanılmışdır. Ətrafında aparılmış tədbirlərlə onun rayon ərazisində daha bir avtomobildən 2 ədəd mobil telefon oğurlaması da müəyyən edilmişdir.

◆◆◆

**Sumqayıt ŞPİ 4-cü PB** əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat tədbirləri nəticəsində narkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilinən şəhər sakini, əvvəllər məhkum olunmuş R.Quliyev saxlanılmışdır. Şəxsi axtarış zamanı ondan 955 qram heroin götürülmüşdür.

***Natiq Cavadov***

# "Sonsuz Dəhliz" "Amazon Prime"da...

**Xocalıdan bəhs edən sənədli film dünyanı ədalətə çağırır**




Erməni lobbisinin Azərbaycan haqqında yaydığı feyk nyusların qarşısını almaq, ölkəmiz haqqındakı əsl gerçəkləri dünya ictimaiyyətinə çatdırmaq günün vacib tələblərindəndir. Bu yalanların ifşa olunmasında dünyanın müxtəlif ölkələrində yaşayan və fəaliyyət göstərən həmyerlilərimiz də fəallıq nümayiş etdirirlər. Görülən işlərin nəticəsidir ki, artıq dünya ictimaiyyəti erməni yalanlarına inanmır, əksinə, Azərbaycan həqiqətlərinin əks olunduğu fotoları, videoçarxları, filmləri nümayiş etdirməklə ölkəmizi dəstəklədiklərini bildirirlər.

Haqq savaşımıza daha bir dəstək litvalı jurnalist Riçard Lapaitisindən gəlib. Onun Dağlıq Qarabağ münaqişəsindən, Xocalı soyqırımından bəhs edən, mükafat qazanan yeganə uzunmetrajlı "Sonsuz Dəhliz" sənədli filmi "Amazon Prime"da tamaşaçılara təqdim olunub. Yeri gəlmişkən, "Amazon" yalnız ABŞ və Böyük Britaniyada 110 milyondan çox üzvü olan dünyanın ən böyük onlayn pərakəndəçisidir.

Film 2015-ci ildə Tenerife Beynəlxalq Film Festivalında "Ən Yaxşı Sənədli film", rejissor Aleksandras Brokas isə "Ən Yaxşı Sənədli Film Rejissoru" mükafatlarını, Accolade Humanitar Mükafatlarında isə "Ən yaxşı Uğur" mükafatını alıb.

Filmin prodüseri və rejissoru Aleksandras Brokas, son gərginləşmə və münaqişənin başlaması ilə əlaqədar olaraq filmin bugünkü aktuallığını şərh edib:

"Bu müharibə həm döyüş meydanında, həm də informasiya sahəsində aparılır. Saxta xəbərlər medianı bürüyüb. Hadisələrə dəqiq baxış üçün beynəlxalq, təcrübəli və müstəqil jurnalistlərin bizim kimi genişmiqyaslı sənədli filmlər hazırlaması vacibdir. Bu, həm təcavüzkarların, həm də qurbanların perspektivlərini göstərmək baxımından da əhəmiyyətlidir".

Məlumat üçün bildirək ki, "Sonsuz Dəhliz" filmi 2015-ci ildə beynəlxalq debüt edib. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın rəhbərlik etdiyi "Xocalıya ədalət" məlumatlandırma kampaniyası ilə birlikdə təbliğ edilib.

***Teymur Əlizadə,***
***polis kapitanı***

## Noyabr ayının 11-dən 17-dək olan müddət ərzində

- Respublikanın daxili işlər orqanları tərəfindən, ötən həftə ərzində törədilmiş 111 cinayətin üstü "isti izlər"lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 38 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 145, o cümlədən borclu şəxs qismində axtarışda olan 62 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 16 ağır yol-nəqliyyat hadisəsi baş vermiş, nəticədə 20 nəfər ölmüş, 6 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 70 fakt müəyyən edilmişdir.

# MARAQ DÜNYASI



### *ÜZƏN EV*

Kanadada yaşayan Ford ailəsi Vankuver şəhəri ətrafında 1915-ci ildə tikilmiş evi sökmədən yükdaşımanı həyata keçirən şirkət vasitəsilə su nəqliyyatı ilə bir şəhərdən digərinə aparıb. Xüsusi platformaya yerləşdirilən karkas ev barjada 8 saat üzərək mənzil başına çatıb.

Altı nəfərdən ibarət ailə 100 min dollara başa gələn "Yeni mənzilə" sahib olub. Kanadada bu cür evlərin qiyməti təqribən 750-800 min dollardır.

Son illər Honkonqun arxitekturasında unikal müasir texnologiyalara daha çox üstünlük verilir.

### *"DƏLİKLİ" GÖYDƏLƏNLƏR*

Çinin tikinti şirkətləri xüsusilə də yaşayış binalarının inşasında şərq fəlsəfəsinin əsaslarından biri olan fenşuy prinsipindən istifadə edir. Fenşuya əsaslanan bu qeyri-adi həllərdən biri də göydələnlərin ortasında böyük "dəliyin" açılmasıdır.

Mütəxəssislər bu cür hündürmərtəbəli binaların layihə və inşasının heç də asan olmadığını bildirirlər. Onların fikrincə, "dəliklər" binanın ventilyasiya sistemini yaxşılaşdırmaqla yanaşı, gözəl mənzərə yaradır. Burada hətta yaşıllıqlar salmaq da mümkündür.

### *ÜÇ SAATA BAŞA GƏLİR*

Latviyanın "Brette Haus" şirkətinin istehsal etdiyi diyircəkli 2 mərtəbəli "bağ evi" 3 saat ərzində quraşdırılır.

Ev həcmcə kiçik olduğundan asanlıqla manipulyator-kran vasitəsilə yük maşınına qoyulur.

Qırmızı rəngli taxta ev qapı, pəncərə və damdan ibarətdir. Bununla belə, burada qonaq otağı, mətbəx və duş da yerləşdirilib.

Bağ evinin özülə ehtiyacı yoxdur. O, sadəcə beton üzərində quraşdırılır.

### *SAHİLDƏ ÜZƏN OTEL*

İspaniya sahillərində, Aralıq dənizində üzən otel – "Punta de Mar" gələcək turizmin bir nümunəsi sayılır.

"Mano De Santo" arxitektura studiyasının layihəsi ilə hazırlanan 2 nəfərlik üzən otelin sahəsi 74 kvadratmetrdir. Sahəsi 40 kvadratmetr olan 1-ci yarusda otaq yerləşir. Digər 34 kvadratmetr zona isə relaksasiya üçün nəzərdə tutulub. Hər 2 yarus akustik sistemlərlə təchiz edilib.

Onun hazırlanmasında ətraf mühitə az ziyan vuran ekoloji materiallardan istifadə olunub.

Bundan başqa, otelin kiçik həcmli olması onu çətinlik çəkmədən sudan quruya çıxarmağa imkan verir.

***Ruhiyyə Əliyeva***

MÜBARİZ KEŞİKDƏ
qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Mübariz keşikdə"yə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 155. İndeks: 66993
Sayı 10436
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 16:00
Qiyməti 40 qəpik